

Kənan Hacı

**Müəllifdən**

*1918-ci ildə Qafqaz İslam Ordusu Nuru Paşanın komandanlığı altında Azərbaycanın azadlığı uğrunda savaşanda Hacı İsgəndər özünümüdafiə batalyonu yaradaraq ermənilərə qarşı döyüşüb misilsiz fədakarlıq göstərərək Nuru Paşa tərəfindən "Xalq Qəhrəmanı" ordeni ilə təltif edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Hacı İsgəndər daim təqib altında olub. Onu ölümdən o dövrdə Azərbaycana rəhbərlik etmiş Ruhulla Axundov xilas edib. 1937-ci il repressiyası zamanı Ruhulla Axundovla birlikdə Hacı İsgəndər də həbs edilib, həbsdə olduğu müddətdə ona erməni müstəntiqlər tərəfindən amansız işgəncələr verilib. Ağır işgəncələrə dözməyən Hacı İsgəndər həbsxanada vəfat etsə də, onun meyitini ailəsinə verməyiblər. Hacı İsgəndər məzarı olmayan qəhrəmanlarımızdandır. "Hacı İsgəndər" romanı bu böyük türk kişisinin həyat və döyüş yolundan bəhs edir və bu mövzuda yazılan ilk romandır.*

*Hələ uzun illər bundan öncə Buzovna qəsəbəsinin axundu, ilahiyyatçı alim, şair Hacı Soltan Əlizadənin "Azərbaycan dərvişləri və rövzəxanları" kitabında Hacı İsgəndər haqqında məlumata rast gəlmişdim. O zamandan fövqəladə iradəyə, qəhrəmanlıq xüsusiyyətlərinə malik olan bu şəxsiyyətin ömür yolu diqqətimi çəkmişdir. Nə vaxtsa onun haqqında irihəcmli əsər yazacağımı düşünmürdüm. Sonrakı illərdə onunla bağlı xeyli maraqlı faktlar əldə etdim və Hacı İsgəndərin Cümhuriyyət tariximizdə müstəsna rolu, igidliyi, mərdliyi, Nuru Paşa kimi bir sərkərdənin rəğbətini qazanması və faciəli taleyi məni bu əsəri yazmağa sövq etdi. Əlbəttə, bu əsər yazılmazdan öncə Hacı Soltanın təşəbbüsü ilə onun yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub, televiziya verilişlərində haqqında süjetlər gedib, tədbirlər keçirilib. Hacı İsgəndərin geniş xalq kütləsinə tanıdılmasında onun böyük xidmətləri olub. Bu romanın yazılması da Hacı İsgəndərin adının yaddaşlarda qalması üçün növbəti bir təşəbbüsdür. Düşünürəm ki, bu cür şəxsiyyətlər hər zaman xatırlanmalı, onların keçdiyi ömür yolu gələcək nəsillər üçün örnək olmalıdır. Əsəri yazarkən Cümhuriyyət tariximizlə bağlı çoxlu sayda kitablar oxudum, arxiv materiallarıyla tanış oldum, bu da mənə romanı yazmaqda yardımçı oldu. Bu roman tarixi sənədlər əsasında yazılsa da, hər halda bədii əsərdir və yazıçı təxəyyülündən geniş istifadə olunub.*

*Kitabın araya-ərsəyə gəlməsində böyük əməyi olan həyat yoldaşım, filologiya üzrə fəlsəfə doktoru İlhamə Hacıyevaya, Qafqaz Müsəlmanları İdarəsinin Xəzər rayonu üzrə qazisi, tədqiqatçı alim Hacı Soltan Əlizadəyə, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya xüsusi təşəkkürlərimi bildirirəm!*

# Hacı İsgəndər

**Roman**

**(əvvəli ötən sayımızda)**

***Ərazilər azad edildikcə gənclərin əsgərliyə çağırışı təşkil edilirdi. Belə ki, Qafqaz İslam Ordusu hissələri Bakıya yaxınlaşanda artıq Göyçay və Şamaxıda çağırış işi təşkil edilir. Bakıda da çağırış işi yüksək səviyyədə təşkil edilmişdi. Hacı İsgəndərin könüllülər dəstəsi döyüşə hazır vəziyyətdə idi. Erməni təhlükəsi olan kəndlərdə Akıncı dəstələri təşkil edilməli idi. Yüz əlli nəfərlik bölüklərə bölünmüş dəstəyə nüfuzlu şəxs rəhbərlik edir, döyüşçülər öz evlərində yaşasalar da mütəmadi təlim keçir və siqnal olan kimi döyüşə çağırılırdılar. Araba və dəvələr, həmçinin arabaçı və dəvəçilər də orduya cəlb edilirdi.***

Avqustda qoşunların strukturunda növbəti dəyişikliklər aparıldı. Ətrafında olan bəzi ilhaqçılar sonradan Azərbaycanın Türkiyəyə qatılacağını bildirərək Azərbaycan milli hissələrinin yaradılmasının zərərli olmasını gənc və siyasi cəhətdən təcrübəsiz olan Nuru paşaya təlqin etmək istəyirdilər. Digər tərəfdən Azərbaycan Korpusunda zabit heyəti sıralarında rusların çox olması, bütün hərbi yazışmanın və sənədləşmənin hətta azərbaycanlı zabitlər tərəfindən də rus dilində aparılması Nuru paşanın narazılığına səbəb olmuşdu. Amma neyləyəsən ki, azərbaycanlı zabitlər rus ordusu sıralarında xidmət etmiş və bu dildə hərbi təhsil almışdılar.

Nəticədə 1918-ci il avqustun 2-də Nuru paşa Qafqaz İslam Ordusu tərkibində Azərbaycan hissələrinin yaradılması barəsində əmr verdi. Əmrə əsasən iki diviziyadan (firqə) ibarət korpus yaradılmalı idi və korpus Osmanlı komandanlığı altında xidmət etməli idi. Əmrə əsasən, mövcud hissələrdən 1-ci Qazax, 2-ci Qarabağ, 3-cü Zaqatala, 4-cü Ağdaş piyada alayları və dörd süvari alayı düzənləndi. Hər piyada alayda üç tabor, pulemyot bölüyü, depo bölüyü, istehkam bölüyü yaradıldı.

***1918-ci il avqustun 13-də Azərbaycan Korpusunun ləğvi barəsində əmr imzalandı. 1918-ci il avqustun 20- də Nuru paşanın əmri ilə 124 azərbaycanlı zabit yeni təyinatlar aldı. Nuru paşanın avqustun 20-də verdiyi əmrlər əsasən Azərbaycan Korpusunun qərargahı təşkil edən qurumların ləğvi, lakin döyüşən xətt hissələrinin saxlanılmasına yönəlmişdi. Qərargahlar ləğv ediləndən sonra etibarlığı şübhə doğuran qeyri- müsəlman zabitlər uzaqlaşdırılmış, azərbaycanlı zabitlər isə Azərbaycan və Osmanlı hərbi hissələrinə təyinat almışdılar.***

Bəs Bakıya son hücum ərəfəsində Qafqaz İslam Ordusunun quruluşu necə idi? Tarixi sənədlərdə hər şey aydın yazılıb. İyun-avqust döyüşlərində Osmanlı qoşunlarından yalnız 5-ci Qafqaz piyada firqəsi iştirak edib, üstəlik onun tərkibində olan qüvvələr Azərbaycana hissə-hissə gəlir və elə hissə-hissə də döyüşə qatılırdılar. Azərbaycanda iki Osmanlı piyada diviziyası olub, onlardan 5-ci Qafqaz piyada firqəsi ilk günlərdən döyüşüb, 15-ci piyada firqə isə yalnız sentyabrın 9-10-da Bakı ətrafına gəlib və təkcə Bakı uğrunda döyüşdə iştirak edib.




5-ci Qafqaz piyada firqəsi ilə eyni quruluşa malik 15-ci piyada firqə döyüşlərin Bakı ətrafında getdiyi vaxt Qafqaz İslam Ordusunun tərkibinə qatılmışdı. Firqənin komandiri miralay Süleyman İzzət bəy, Ərkani-Hərb rəisi minbaşı İhsan bəy idi. Azərbaycan sərhəddini keçəndə firqənin tərkibində olan 38-ci piyada alayına miralay Səlim bəy, 56-cı alaya qaimməqam Fəzli bəy, 107-ci alaya qaimməqam Fəhmi bəy rəhbərlik edirdilər. Bununla belə, toplanmış döyüş təcrübəsi, yeni gəlmiş hərbi hissələr arasında döyüşlərdə iştirak etmiş hərbi hissələr yerləşdirmək istəyi, çoxsaylı azərbaycanlı könüllülərdən maksimum yararlanmaq zərurəti 15-ci piyada firqəsinin tərkibində dəyişikliyə səbəb oldu.

1918-ci il sentyabrın 10-da Qafqaz İslam Ordusu aşağıdakı quruluşa malik idi: 5-ci Qafqaz piyada firqəsi, 15- ci piyada firqəsi, Cənub qrupu (Azərbaycan diviziyası), 106-cı Qafqaz piyada alayı (əlahiddə göstərilib). 5-ci Qafqaz piyada firqəsi (komandan Mürsəl paşa, qərargah rəisi Rüştü bəy), 4 piyada alayı (onlardan üçü əvvəllər 5-ci firqənin tərkibində olanlar idi, biri isə 106-cı Qafqaz piyada alayından götürülüb), 1 topçu alayı və əlavə hissələrdən ibarət idi. Piyada və süvari alayların strukturunda dəyişklik baş verməmiş, topçu alayı gücləndirilmişdi. Onun tərkibində 4 topçu batareyası (2 Şnayder, 2 Dağ topçu), səhra topçu, rus səhra topçu, rus dağ topçu tağımları (cəmi 33 top) var idi. Əlavə hissələrə 5-ci istehkam bölüyü, 5-ci səhiyyə bölüyü, telsiz teleqraf taqımı, 24-cü səyyar xəstəxana, orkestr, iaşə tağımı, 20-ci və 25-ci ərzaq qolları aid idi. 15-ci piyada firqəsi (komandan Suleyman İzzət bəy, qərargah rəisi İhsan bəy), 2 piyada alayı (38-ci və 107-ci piyada alayları), Zehni bəyin bölüyü, Tevfiq bəyin bölüyü (Maştağı könüllülər milisi), 15-ci topçu alayından və əlavə hissələrdən ibarət idi. Firqə Rumıniyada yerləşərək Konstansadan dəniz yolu ilə Batuma, sonra Gümrüyə gətirilmişdi.

***Piyada alayların quruluşu 5-ci firqənin alayları ilə eyni idi. Zehni bəy müfrəzəsi bir Osmanlı süvari alayı (iki bölükdən ibarət mürəttəb 2-ci süvari alayı), iki Azərbaycan süvari alayı (üç bölükdən ibarət Tatar süvari alayı və üç bölükdən ibarət Ləzgi süvari alayı) və heyətləri azərbaycanlılardan olan iki dağ topundan ibarət olmuşdur. Tevfiq bəy Müfrəzəsi (Maştağı könüllülər) üç alay şəklində toplanmış azərbaycanlı könüllülərdən düzənlənmişdi. 15-ci topçu alayı iki Dağ topçu batareyası, bir səhra topçu taqımından (cəmi 12 top) ibarət olub. Əlavə hissələrə istehkam bölüyü, səhiyyə bölüyü, telsiz teleqraf taqımı, səyyar xəstəxana, orkestr, iaşə taqımı, iki ərzaq qolu aid idi. Cənub qrupu iki tabordan ibarət olan 4-cü piyada alayı, üç süvari könüllülər alayı, bir səhra və bir dağ topu alaylarından ibarət olub. 106-cı Qafqaz piyada alayı digər hərbi hissələrə birləşdirildiyindən tərkibində bir piyada taboru qalmışdı. Qafqaz İslam Ordusu bu tərkibdə Bakı uğrunda son döyüşə başlamışdı.***

Hacı İsgəndərin təşkilatçılıq qabiliyyəti, döyüşən qüvvələrə komandanlıq etmək məharəti, hərbçilərə xas sərt nizam-intizamı Nuru Paşanın diqqətini çəkirdi. O, pələng kimi çevik idi, tez-tez işlətdiyi bir cümlə vardı: quyruğu samandan olan atəşə yaxınlaşmasın! Əsgərlər onun ardınca ölümə belə getməyə hazır idilər. Sanki o, anadan sərkərdə olmaq üçün doğulmuşdu. Nuru Paşa düşünürdü ki, belə adamlara nadir hallarda rast gəlmək olur, heyif ki, onun hərbi təhsili yoxdur, yoxsa gələcəyin generalı ola bilərdi.

***

Qızılı səhər şəfəqində yuyunan Bakının qara üzlü divarlarının, bir-birinə qarışmış nəhəng daş binaların, darısqallığın, divarlara sığınmış qüllə və minarələrin, Şərqin məcməyisinə qızıl kimi tökülmüş bütün bu yığının, Azərbaycan adlanan bu məmləkətin üstü ilə zərif və xəfif səmanın sərt və qorxulu maviliyində buludlar uzun sapa düzülmüş mirvari dənələri kimi rəngdən-rəngə düşərək ləngərlənə-ləngərlənə sürünür, üst-üstə qalanmış tikintilərin arasında qatı kölgəliklərin üzərində əriyərək yox olurdu. Buludların mirvari bağı yavaş-yavaş sürünür, ötüb keçir və uzaqlarda gözdən itirdi. Onların Nargınə tərəf necə sürünüb gözdən itdiyi damların üstündən aydınca seçilirdi. Uzaqda boz rəngə çalan Qız qalası görünürdü. Qalanın nəhəng gövdəsi Xəzərdən əsən sərin səhər mehində sanki köndələninə, ikiyə şaqqalanmışdı. Göz işlədikcə görünən sahil zolağı ilğım kimi laylay olmuşdu; hər yer gah açıq-aydın seçilir, gah da zərif dumana bürünürdü.

Bakı üç gün ərzində erməni silahlı qüvvələri tərəfindən havadan, dənizdən, qurudan bombardman edilmişdi, on dörd min silahsız türk qətlə yetirilmişdi. Məscidlər, kitabxanalar od vurularaq yandırılmışdı.

Damların üstündən ətrafda baş verən hadisələrin hamısını aydınca görmək mümkün idi. Kələ-kötür, böyük sal daşlar döşənmiş yastı damlarda, qara buludların oynadığı səmanın altındakı Bakı gecələrinin bürküsündə rahatca nəfəs almaq olurdu. Damlar nə qədər yüksək tikilirdisə, bir o qədər asan nəfəs alınırdı, çünki heç nə sərin hava axınının, durğun, donmuş Bakı bürküsünü vurub dağıdan həmin o yüngül mehin qabağını kəsə bilmirdi. Gün belə başlanırdı. Uzaqlarda titrəyən ilğım getdikcə dağılır, üfüq yavaş-yavaş aydınlaşırdı. Bazar tərəfdən qızardılmış ətlə soğan iyi gəlirdi. Misgərlərin sayagəlməz balaca çəkiclərinin cingiltisi aləmi başına götürmüşdü. Şəhər oyanırdı. Nuru Paşa qərargahda bütün özünümüdafiə dəstələrinin başçılarını bir yerə toplamışdı. Hamı bir masa ətrafına yığılmışdı, Nuru Paşanın gəlişini gözləyirdilər. Bölgələrdəki vəziyyətlə bağlı qızğın müzakirələr gedirdi. Qəfildən qapı açıldı və Nuru Paşa ildırım sürətilə içəri girdi, hamı hörmət və ehtiram əlaməti olaraq ayağa qalxdı. Paşanın əhval-ruhiyyəsi yerində idi, döyüşlərdə göstərilən uğurlu nəticələr onu məmnun etmişdi. Nuru Paşa əyləşəndən sonra zala göz gəzdirdi:

***-Hamı burdadır?***

***Yavəri ona məlumat verdi ki, bütün dəstə başçıları yığışıb. Nuru Paşa masanın aşağı başında əyləşmiş Hacı İsgəndəri görüncə əliylə onu yanına çağırdı:***

**(davamı gələn sayımızda)**